# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **236/6** **16 noyabr 2012-ci il**

Auditə dair kitabların, dərs vəsaitlərinin, məlumat və təbliğat xarakterli materialların nəşri barədə

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa və "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə uyğun olaraq, Auditorlar Palatasının 2012-2014-ci illər üzrə iş planının və Palata Şurasının 2012-cu il üzrə iş planının "Auditə dair kitabların, dərs vəsaitlərinin, məlumat və təbliğat xarakterli materialların nəşri barədə" 7.8-ci, 30-cu müvafiq bəndlərinə uyğun Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsinin rəisi M.Abbasov tərəfindən hazırlanmış təqriri məruzəni müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsinin rəisi M.Abbasov tərəfindən hazırlanmış "Auditə dair kitabların, dərs vəsaitlərinin, məlumat və təbliğat xarakterli materialların nəşri barədə" təqriri məruzə nəzərə alınsın (əlavə olunur).
2. Auditorlar Palatasının auditə dair kitablarının, dərs vəsaitlərinin, məlumat və təbliğat xarakterli materiallarının nəşr etdirilməsinə məsul şəxslərin görüldüyü işlər müsbət qiymətləndirilsin.
3. Palatanın 2013-cü il üzrə iş planında bu istiqamətdə tədbirlərin daha geniş miqyasda həyata keçirilməsinin nəzərdə tutulması məqsədəmüvafiq hesab edilsin.
4. Palatanın Aparatına (Q.Bayramov) tapşırılsın ki, bu qərarın Palatanın internet saytında yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**